## ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI

UOT 37.01

**Asya Məhəmmədəli qızı Bəkirova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# MÜSTƏQİLLIYİMİZ DÖVRÜNDƏ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ KLASSİK ƏDƏBİYYATIN TƏDRİSİNƏ YENİ YANAŞMA

**Ася Магомедали гызы Бекирова**
*доктор философии по педагогике, доцент,*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

# НОВЫЙ ПОДХОД К ПРЕПОДАВАНИЮ КЛАССИЧЕСКОЙ ЛИТЕРАТУРЫ В УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**Asya Maqomedali Bekirova**
*doctor of Philosophy in Pedagogy, assistant professor*
*leading researcher of the Institute of Education of the Republic of Azerbaijan*

# A NEW APPROACH TO TEACHİNG CLASSİCAL LİTERATURE İN SCHOOLS İN THE PERİOD OF İNDEPENDENCE

**Xülasə:** Proqram və dərsliklərlə tanışlıq göstərir ki, bütün dövrlərdə ümumtəhsil məktəblərində şagirdlərin savadlanması üçün ədəbi nümunələrdən istifadə olunmuşdur. Şagirdlərin yaxşı bilik qazanması orta məktəblə, xüsusilə ədəbiyyat tədrisi ilə bağlıdır. Bu gün ədəbiyyatımızı tədris edən müəllimlər fənn kurikulumunun və şagirdlərin oxusunun təşkilinə verilən müasir tələbləri nəzərə almalı, gəncliyə çatdırmalı, söz sənətkarlarının əsərlərindən müvafiq parçaları öyrətməklə bu istiqamətdə iş aparmalıdır. Milli-mənəvi dəyərlərimiz, əsasən, öz əksini klassik ədəbiyyatımızda tapdığından, müstəqilliyimiz təhsil ocaqlarında ədəbiyyatın tədrisinə də yeni yanaşma tələb edir ki, bütün bunlar müəllimlərin diqqətindən yayınmamalıdır.
***Açar sözlər:*** *klassik ədəbiyyat, fənn kurikulumu, şəxsiyyət, pedaqoji fikir, düzgün oxu vərdişi*

**Резюме:** Знакомство с программой и учебниками показывает, что во все периоды в общеобразовательных школах для грамотности учащихся использовали литературные образцы. Хорошее усвоение знаний учениками, в первую очередь, связано со средней школой, особенно с изучением литературы. Учителя, преподающие литературу сегодня, должны учитывать современные требования, предъявляемые к организации чтения и предметные курикулумы, а также довести до молодежи произведения мастеров слова и обучая соответствующие отрывки усиленно работать в этом направлении. Поскольку наши национально-нравственные ценности в основном отражены в классической литературе, наша независимость требует нового подхода к преподаванию литературы в учебных заведениях, что постоянно должно находиться в центре внимания учителя.
***Ключевые слова:*** *классическая литература, предметный курикулум, личность, педагогическая мысль, навык, правильного чтения*

**Summary:** Acquaintance with the programs and textbooks shows that literary examples were used at all times to enlighten the students of secondary schools. The acquisition of knowledge by the students in the high school is directly connected with the teaching of literature. Today school teachers who teach our literature should take into consideration the subject curriculum and requirements for students' reading and by teaching the appropriate pieces from the works of writers they should carry out their work in this direction. In this regard, as our national and moral values are basically reflected in our classic literature, our

independence requires a new approach to the teaching of classical literature in educational institutions. All these issues should be in the focus of our teachers.

***Key words:*** *classic literature, subject curriculum, personality, pedagogical idea, proper reading habits*

Mənbələrdən - proqram və dərsliklərlə tanışlıqdan aydın olur ki, bütün dövrlərdə ümumtəhsil məktəblərində şagirdlərin lazımi şəkildə savadlanması üçün ədəbi nümunələrdən istifadə olunmuşdur. Xalqımızın ayrı-ayrı dövrlərdə yaşamış müdrik oğulları, xüsusilə şair və yazıçıları gəncliyin hərtərəfli biliyə malik olmasını arzulamışlar. Heç şübhəsiz, bu mənəvi keyfiyyətin aşılanması, daha doğrusu, adamların yaxşı bilik, savad qazanması bilavasitə orta məktəblə, xüsusilə ədəbiyyatın tədrisi ilə bağlıdır. Bu gün məktəbdə ədəbiyyatımızı tədris edən müəllimlər fənn kurikulumunun və şagirdlərin oxusunun təşkilinə verilən müasir tələbləri nəzərə almalı, gəncliyə çatdırmalı, sənətkarların əsərlərindən müvafiq parçaları sevərəkdən tədris etməli, onlara öyrətməli və bu istiqamətdə iş aparmalıdır.

Klassiklərdə elə fikirlər, elə bədii parçalar var ki, bizə görə, təlim materialı kimi dərsliklərə salınsa və şagirdlərə çatdırılsa, onlar bu bədii nümunələrdən lazımi tərbiyəvi nəticə çıxararlar.

Sovet dönəmində kommunist ideologiyası əsas tələb olduğundan, klassik ədəbiyyatımıza lazımi əhəmiyyət verilmirdi. Açığını desək, bəzi müəllimlər klassik ədəbi nümunələrin tədrisinə istənilən qayğını göstərmir, milli xüsusiyyəti lazımi şəkildə qiymətləndirmirdi.

Şükürlər olsun ki, ölkəmiz müstəqillik qazandı, indi milli xüsusiyyətin (əlbəttə, mütərəqqi cəhətlərin), milli-mənəvi dəyərlərin qiymətləndirilməsi, onların təkmilləşdirilərək gələcək nəsillərə ötürülməsi dövlət siyasətimizin tərkib hissəsinə çevrilmişdir. Milli-mənəvi dəyərlərimiz, əsasən, öz əksini klassik ədəbiyyatımızda tapmışdır. Əlbəttə, bütövlükdə ədəbiyyatımız bizim üçün dəyərlidir, lakin orta məktəb şagirdlərinin milli ruhda tərbiyəsi baxımından yanaşdıqda, klassik ədəbi nümunələr daha zəngindir.

Klassik yazarlarımız (şair və yazıçılarımız) fəaliyyətləri dövründə adamların, xüsusilə gənclərin dünyagörüşü inkişaf etmiş şəxsiyyət kimi formalaşmalarını, ağıl-kamal sahibi olmalarını istəmiş və əsərlərində maraqlı nümunələr vermişlər. Nümunə kimi, bəzi mənbələri yada salmaq faydalı olar:

*“İnsana arxadır onun kamalı,*
*Ağıldır insanın dövləti-malı.”*

Yaxud:

*“...Elmlə, hünərlə, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz...*
*Rütbələr içində seçilir biri –*
*Hamıdan ucadır alimin yeri.”*

–deyən Nizami elmi, ağılı hər şeydən üstün tutur. Şair bu fikirlərini bütün əsərlərində bu və ya digər şəkildə oğlu “Məhəmmədə nəsihət” başlığı altında daha aydın verir.

Klassik nümunələrdən aydın olur ki, həqiqətən, təfəkkür sahibləri elmə, təhsilə böyük əhəmiyyət vermişlər. Nizami Gəncəvinin qeyd olunan misraları bunu təsdiq edir ki, klassik yazarlar öz əsərlərində pedaqoji fikirlərini də aydın dillə oxuculara çatdırır, o, təlimə böyük əhəmiyyət verir. Bunu aydın dərk etmək üçün şair “Yeddi gözəl” poemasında yazır:

*Çox iti zehinlər yatan oldular,*
*Axırda saxsı qab satan oldular.*
*Təlimə həvəskar çox korazehin*
*İqlimlər qazisi olmadı? Deyin.*
*Tazının ağzına düşən hər şikar*
*Təlim gördüyüçün halal sayılar.*

Misralardan aydın olur ki, Nizami təlimə böyük qiymət verir. Təlimə-öyrənməyə belə yüksək qiyməti klassik söz sənətkarlarının əsərlərində bu və ya digər şəkildə aydın görmək olur. Şair əsərlərində məktəblinin təfəkkür tərzinin, qavrama imkanının, demək olar ki, nəzərə alınması və diqqət mərkəzində saxlanmasını vacib hesab edir. İngilis şərqşünas alimi Gibbin sözləri ilə desək, lirika zirvəsində tək olan Məhəmməd Füzuli yazır:

“Bir gün məktəbə yolum düşdü. Orada fars əsilli, pəri üzlü bir sərv qamətli qız gördüm. Mənim yaxınlaşdığımı görüncə şeirlərimdən bir neçə beyt oxumağımı istədi. Mən də ərəbcə və türkcə şeirlərimdən bir neçə beyt oxudum. Dedi ki, bunlar mənim dilimdə yazılmayıbdır, mənim

karıma gəlməz. Mənə farsca ciyər yandıran aşiqanə qəzəllər oxumalısan.

...Bu söz məni utandırdı. Könlümə bir atəş düşdü ki, indiyə qədər yığmış olduğum xırmanlara od vurub yandırdı və xəyalımın otağını farsca qəzəl söyləmək məhəbbətinin şamı ilə işıqlandırdı".

Məhəmməd Füzuli müasirləri arasında üç qism ziyalıdan şikayət edərək oxuculara onlardan narazılığını bildirirdi: istedadı olmayıb başqalarını yamsılamaq, təqlid etmək, sözlərini təhrif etməklə öz adına çıxmaq yolu ilə şairlik edir. Füzuli belələrini nəzərdə tutaraq yazır:

*Müddəi eylər mənə təqlid, nəzmü nəsrdə,*
*Leyk namərbut əlfazü mükəddər zatı var.*
*Pəhləvanlar badpalər səyridəndə hər yana,*
*Tifl həm cövlan edər, amma ağacdan*
*atı var* (3, s.268).

Şeirin məzmunundan aydın olur ki, Füzuli belə adamlara tənqidi münasibət göstərərək onları taxtanı qıçının arasına alaraq at minib, özünü istedadlı şairlərin (özünü nəzərdə tutur) qarşısında uşaq olduğunu deyir. Şair bu qarşılaşdırmanı özünü yel qanadlı at belində olan pəhləvana, onu yamsılayan, onu təqlid edənləri isə ağacdan at minən uşağa bənzədir. Maraqlı müqayisədir, deyilmi?

M.Füzulinin ikinci tənqid hədəfi mətni, xüsusilə şeir parçasını düzgün oxuya bilməyənlərdir. Bu, ilk nəzərdə sadə görünsə də, olduqca mühüm cəhətdir, əlifbanı bilmək, hərfləri tanımaq düzgün oxu üçün kifayət deyil. Unutmaq olmaz ki, mətni, xüsusilə nəzm əsərini düzgün oxumaq üçün Azərbaycan dilinin qanunlarını - tələffüz, intonasiya, vurğu kimi amilləri bilmək mühüm şərtdir. Nəzərə almaq lazımdır ki, bu, mətnin məzmununun dərk olunması üçün də əsasdır. Böyük şair Məhəmməd Füzuli mətni düzgün oxuya bilməyənləri məzəmmət edərək yazır:

*Binəsib olsun nəimi-xülddən ol zişt kim,*
*Namülayim ləhcəsi mövzunu bimövzun edər,*
*Tişeyi-ləfzi binayi-nəzmi viran eyləyib,*
*Süst gövtari fəsahət əhlini məğbun edər.*

Misralardan aydın olur ki, şairin məzəmməti adi məzəmmət deyil, ciddi tənqidi, hətta qarğış xarakterı daşıyır: "binəsib olsun", "namülayim ləhcəsi mövzunu bimövzun edər", "tişeyiləfzi binayi-nəzmi viran eyləyib" ifadələri şairin münasibətini aydın göstərir (nümunələri müəllimlərin qabaqcadan bilməsi, şagirdlərin anlaq səviyyəsinə uyğun izah etməsi tövsiyə olunur).

Nöqsanlı oxu (musiqi sənətində muğam havalarını) sözlərin düzgün tələffüz edilməsinə mənfi təsir göstərir. Musiqişünasların etirafına görə musiqi mahnıda musiqi ilə sözün (şairin) düzgün, ahəngdar səslənməsi 30-50 faizdir. Düzgün oxuya əsasən məktəbdə sahib olunur.

Təəssüflə etiraf etmək lazım gəlir ki, məktəblərimizdə mətni düzgün oxuya, vərdişə malik olmayan şagirdlərə (bütün siniflərdə) tez-tez rast olunur.

Adamların savadlılıq səviyyəsini müəyyən edən əsas keyfiyyətlərdən biri də yazı bacarığıdır, mədəniyyətidir. Yazı əsasən təfəkkürlə, adamların düşüncə tərzi ilə bağlı olduğundan, məktəblərimizdə yazı mədəniyyəti bizi tam təmin etməyən sahələrdən biri kimi diqqəti çəkir. Məhəmməd Füzuli yazısı nöqsanlı olan adamları tənqid (qarğış) edərək yazırdı:

*Qələm olsun əli ol katibi bədtəhririn*
*Ki, fəsai-rəqəmi sözümüzü şur eylər,*
*Gah bir hərf sükutilə qılır nadiri nar,*
*Gah bir nöqtə qüsurilə gözü kur eylər.*

Misralardan aydın olur ki, şair pis yazan (bədtəhrir) adamları qarğış edir, əli kəsilsin (qələm olsun) deyir. Şair öz dövründə istifadədə olan əlifbadan nümunə gətirərək söyləyir ki, kiçik bir düzəliş mənanı dəyişdirir. Şair maraqlı bir nümunə ilə fikrini oxucuya çatdırır, onu düzgün yazmağa çağırır: misaldan aydın olur ki, əski əlifbada Z ilə R-da bir nöqtə ilə fərqlənən nöqtə yaddan çıxıb yazılmazsa, göz kor oxunar. Üstəlik yazının məzmunu xüsusi diqqət tələb edir.

İnkaredilməz həqiqətdir ki, düzgün oxunun da, düzgün yazının da əsası məktəbdə qoyulur. Ona görə də klassik söz sənətkarları həmişə məktəblə maraqlanmış, məktəblilərin oxusuna, yazısına qayğı göstərmişlər.

Bildiyimiz kimi, bilik, oxu yazı vasitəsilə qazanılır. Böyük maarifçi A. Bakıxanov haqlı olaraq qeyd edir: "Ağıldan və elmdən daha yax-

şı bir dövlət yoxdur. Çünki heç kəs onları sənin əlindən ala bilməz".

Doğrudur, klassik söz sənətkarları xüsusi pedaqoji əsər yazmamışlar, lakin bədii əsərlərində pedaqoji fikirlərini söyləməklə uşaqların təlim-tərbiyəsini ön plana çəkmiş, istər elmi, istərsə də fiziki cəhətdən düzgün formalaşmalarını həmişə diqqət mərkəzində saxlamışlar. Klassik sənətkarlar bir qayda olaraq əsərlərində övladlarına – gənclərə nəsihət vermişlər. Yazarlar bu nəsihətləri, qiymətli fikirləri övladlarına həsr etsələr də, lakin deyilənlər bütünlükdə gəncliyə aiddir. Klassik sənətkarların elə bir əsəri tapılmaz ki, o əsərlər bu və ya digər şəkildə faydalı, ibrətamiz, gənclərin tərbiyəsinə müsbət mənada təsir göstərməsin. Əlbəttə ki, belə əsərlər həyat məktəbidir, həyat dərsliyidir. Belə əsərlərdən faydalanmaq, onları oxumaq, dərinliklərə varıb təhlil süzgəcindən keçirmək hər bir gəncin borcudur, üzərinə düşən vəzifələrdəndir.

Seyid Əzim Şirvani məktəbyaşlı uşaqların təlim-tərbiyəsinə, savadlı olmalarına xüsusi qayğı göstərmişdir. O, Nizami Gəncəvinin, Sədi Şirazinin əsərlərindən maraqlı parçalar tərcümə edib özünün tərtib etdiyi "Rəbiül-ətfal" adlı kitabına daxil etmişdir, bununla yanaşı, oğlu Cəfərə iyirmidən çox öyüd-nəsihət yazmışdır. A.Bakıxanovun "Təhzibül-əxlaq"dan sonra yazdığı 103 nəsihətdən ibarət "Nəsihətnamə" əsəri gənclərin tərbiyəsinə təsir baxımından maraq doğurur. Ata-anaya, böyüklərə itaət və ehtiramın vacibliyinə aid, daha sonra isə həyat və məişət məsələləri ilə əlaqədar olan əxlaqi nəsihətlər verilir ki, bu nəsihətlərin əksəriyyəti "Təhzibül əxlaq"dakı əxlaqi nəzəriyyə ilə sıx bağlıdır. Şagirdlərin əxlaqını yaxşılaşdıran və onlarda nəcib xasiyyətlərin yaranmasını təmin edən belə nəsihətlər bu gün də öz əhəmiyyətini itirməmişdir. Belə əsərlərin şagirdlər tərəfindən mütaliəsi, üzərində iş aparılması, heç şübhəsiz, faydalı olardı. Bu mənada müstəqilliyimiz təhsil ocaqlarında klassik ədəbiyyatın tədrisinə yeni yanaşma tələb edir. Yəni müəllim kurikulum standartlarına uyğun olaraq şagirdlərə klassik əsərlərin tədrisi ilə bağlı hansı bilikləri və bu bilikləri necə verəcəyindən, onlarda hansı bacarıq-vərdişləri yaradacağından əvvəlcədən xəbərdar olmalıdır. Təlim materialında təsadüf edilən, həqiqiliyinə şübhə yaranan fikir şagirdlərdə şübhə, təlimdə elmi-pedaqoji mülahizəyə inamsızlıq yaradır. Dediyimiz kimi, söylənən bu fikirlər ədəbiyyatdan təlim materialına yeni yanaşma tələb edir. Bu baxımdan ədəbiyyat müəllimləri asudə vaxtlarında daima öz üzərində çalışmalı, standartlara uyğun ədəbi nümunələrin tədrisinə, onun öyrədilməsinə yeni yanaşmanı, təlim texnologiyalarından istifadəni, inteqrasiyanın səmərəsini yaddan çıxarmamalıdırlar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ədəbiyyat fənninin tədrisi zamanı verilən ədəbi faktlarla klassik ədəbiyyatın öyrədilməsi prosesində təlim materialına yeni yanaşmanın nəzərə alınmasıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə verilən hər bir fakt, irəli sürülən hər bir fikir ümumtəhsil məktəblərində çalışan ədəbiyyat müəllimləri üçün klassik ədəbiyyatın tədrisinə yeni yanaşmanın səviyyəsini diqqət mərkəzində saxlayacaqlarına zəmin yaradır.

## Ədəbiyyat:


1. N. Gəncəvi. Yeddi gözəl. Bakı: Yazıçı, 1983.
2. N. Gəncəvi. İskəndərnamə. Bakı: Yazıçı, 1982.
3. M. Füzuli. Seçilmiş əsərləri, Bakı: Şərq-Qərb, 1992.
4. Хуторский А.В. Педагогическая инноватика: методология, теория, практика: научное издание. М., 2005.
5. Mikayılov Ş.A., Bəkirova A.M. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı: Naksuana, 2008.
6. Mikayılov Ş.A., A.M. Bəkirova. Ümumtəhsil məktəblərində ədəbiyyatdan təlim materialına yeni yanaşmanın mahiyyəti və zəruriliyi. Bakı, 2011.


**E-mail**: bekirova-asya@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **A. Hacıyev**, *ped.ü.fəls.dok., dos.* **Q. Əmiraslanova**
**Redaksiyaya daxil olub:** 05.11.2018.